**AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**F. KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**

**ELMİ-METODİKA ŞÖBƏSİ**



***Ənvər Məmmədxanlının 100 illik yubileyinə həsr olunur***

# ŞAİR TƏBİƏTLİ YAZIÇI

***(metodiki məktub)***

**B A K I – 2 0 1 3**

Tərtib edəni: Ruhiyyə Məmmədli- F.Köçərli adına Respublika Uşaq Kitabxanasının baş kitabxanaçısı

Redaktor: Fizurə Quliyeva- F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru

## Tərtibçidən

Bu vəsaiti Ənvər Məmmədxanlının 100 illik yubileyi münasibətilə sizə təqdim edirik. Vəsaiti sizə təqdim etməkdə əsas məqsədimiz oxucuların Ənvər Məmmədxanlı haqqında olan məlumatlarını daha da artırmaqdır.

Görkəmli ədibimiz Ənvər Məmmədxanlı o istedadlar nəslinə mənsubdur ki, elə ilk əsərlərindən etibarən öz mövzuları, öz üslubu ilə əbədi ictimaiyyətin xüsusi marağına səbəb olmuş, özünəməxsus yaradıcılıq yolu keçmişdir. Hamımıza məlumdur ki, dövlətimizin müstəqillik əldə etdiyi bir dövrdə, xalqımıza kamil, şüurca yetkin insanlar daha çox lazımdır. Belə insanların yetişdirilməsində bu dəyərli əsərlərin misilsiz əhəmiyyəti vardır. Bu gün Ənvər Məmmədxanlı kimi yazlçıların əsərləri böyüməkdə olan nəslin tərbiyəsində böyük əhəmiyyətə malikdir. Bildiyimiz kimi Ənvər Məmmədxanlı tarixi mövzularda çox gözəl əsərlər yaradan sənətkarlardandır. Onun əsərlərində müasir dövrün nəbzi tutulmuş, coşqun və qaynar həyatımız öz bədii inikasını tapmışdır. Bəli, oxucuların vətənpərvərlik, humanizm, düşmənə nifrət, beynəlmiləlçilik ruhunda tərbiyə olunmasında Ənvər Məmmədxanlı kimi yazıçıların rolu böyükdür.

Müasir dövrün indiki mərhələsində oxucularımızın dünyası çox zəngindir. Çox vaxt onların təfəkkürü yazıçı təfəkkürünə uyğun olur. Ona görə də, savadlı oxucu həmişə dəyərli əsərlərin axtarışındadır. Ənvər Məmmədxanlının qələmə aldığı romanlar, hekayələr də bu dəyərli əsərlərdəndir.

Bu sahədə kitabxanaçı olaraq bizim vəzifəmiz belə dəyərli əsərləri oxucularımıza sevdirmək, onların ideya-bədii səviyyəsinin yüksəldilməsinə qayğı göstərməkdir. “Şair təbiətli yazıçı” adlı vəsait də elə bu məqsədlə hazırlanmışdır.
Vəsait yazıçının “Həyat və yaradıcılığı” və “Keçiriləcək tədbirlər” hissəsindən ibarətdir. Vəsaitin I hissəsində Ənvər Məmmədxanlının həyat və yaradıcılığından söhbət açılır. İkinci hissəsində kitabxanalarda keçiriləcək tədbirlərdən bəhs olunur.

Vəsaiti sizə təqdim etməzdən öncə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ənvər Məmmədxanlının 100 illik yubileyinin keçirilməsi haqqında 2013-ci il 6 fevral tarixində verdiyi sərəncamı təqdim edirik.

**Ənvər Məmmədxanlının 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2013-cü ilin fevral ayında Azərbaycan ədəbiyyatının tanınmış simalarından biri, xalq yazıçısı, istedadlı nasir, dramaturq, ssenarist və tərcüməçi Ənvər Qafar oğlu Məmmədxanlının anadan olmasının 100 illiyi tamam olur.

Ənvər Məmmədxanlı ədəbi prosesə həmişə təravət gətirən əsərləri ilə xalqımızın bədii-mədəni fikir xəzinəsinin zənginləşməsi naminə səmərəli fəaliyyət göstərmişdir. Onun yaradıcılığı ana dilimizə həssas yazıçı yanaşmasının parlaq nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq milli ədəbiyyatımızın inkişafı sahəsində mühüm xidmətlər göstərmiş Ənvər Məmmədxanlının 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, xalq yazıçısı Ənvər Məmmədxanlının 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 fevral 2013 – cü il

# I. Həyat və yaradıcılığı

Ənvər Məmmədxanlı ədəbiyyatımızın tarixinə unudulmaz nasir, dramaturq, klassik hekayə ustadı, uzunömürlü kino – ssenarilər müəllifi, orijinal tərcüməçi kimi daxil olmuşdur. Ənvər Məmmədxanlı təkrarsız insan, orijinal yazıçı, gözəl nasir, vətənpərvər ziyalı, dərin erudisiyaya malik cağdaşımız, mahir dramaturq və kino xadimi, həyatda realist və sənətə münasibətində idealist, milli zadəganlığın son yüzillərdə yetirdiyi böyük romantik şəxsiyyətlərdəndir. O, yazıçı, kinodramaturq, tərcüməçi, Yazıçılar Birliyinin üzvü, Azərbaycan Əməkdar incəsənət xadimi, Azərbaycan xalq yazıçısıdır.

Görkəmli ədibimiz Ənvər Məmmədxanlı o istedadlar nəslinə mənsubdur ki, elə ilk əsərlərindən etibarən öz mövzuları, öz üslubu ilə əbədi ictimaiyyətin xüsusi marağına səbəb olmuş, özünəməxsus yaradıcılıq yolu keçmişdir. Bəli, Ənvər Məmmədxanlı gözdə-könüldə yaşayan sənətkarlardan idi. Belə sənətkarlar mənsub olduqları xalqın könül mütərcimləridir.

Ənvər Məmmədxanlı 1913-cü il fevralın 29-da Azərbaycanın Göyçay şəhərində doğulmuşdur. Burada ibtidai məktəbi bitirdikdən sonra Bakıda N.Nərimanov adına Sənaye texnikumunda təhsil almışdır. Eyni zamanda Azərbaycan Neft İnstitutunda iki il qiyabi təhsil almışdır. Azərnəşrin bədii şöbəsində redaktor və tərcüməçi, Moskvada Ali Kinomatoqrafiya İnstitutunda müdavim, İkinci dünya müharibəsi dövründə cənub-qərb cəbhəsində "Qızıl Ordu" cəbhə qəzetinin Azərbaycan redaksiyasının xüsusi müxbiri olmuşdur. Sonra redaksiya ilə birlikdə Stalinqrada göndərilmişdir. 1942-ci ilin axırlarında bir qrup Azərbaycan yazıçısı ilə Şimali Qafqaz cəbhəsində 416-cı diviziyada olmuşdur. Bakıda Azərbaycan Radio Verilişləri Komitəsində redaktor kimi çalışmışdır. Yenidən Zaqafqaziya cəbhəsinə, oradan İrana hərbi xidmətə göndərilmişdir. Ənvər Məmmədxanlı Təbrizdə nəşr olunan "Vətən yolunda" ordu qəzeti redaksiyasında xüsusi müxbir kimi çalışmış, ordudan tərxis ediləndən sonra "Azərbaycanfilm" kinostudiyasının ssenari redaksiya heyətinin baş redaktoru olmuşdur. Ənvər Məmmədxanlı ədəbi fəaliyyətə 1930-cu illərdən başlamışdır. 30-cu illərin ortalarında Moskvada Dövlət Kinomatoqrafiya İnstitutunda aldığı təhsil onun gələcəyini tamam başqa bir məcraya yönəltdi. Ənvər Məmmədxanlı o vaxtdan etibarən ömrünü əbədilik ədəbiyyata bağladı. Ənvər Məmmədxanlı əlinə qələm aldığı ilk gündən son nəfəsinədək bu ülfətə sadiq qaldı. Onun "Bakı gecələri", "Əfsanəvi dağlar", "Karvan dayandı", "Qaralmış günəş", "Afaq" kimi şirin, romantik hekayələrindən tutmuş, son illərin məhsulu olan "Babək" kinossenarisinə qədər yaradıcılıq yolu məhz bədii sözün qüdrəti, ən öncəsi isə, həyat həqiqətinə sadiqlik baxımından bizə doğmadır. Ənvər Məmmədxanlının 40-cı illərdə qələmə aldığı "Şərqin səhəri", "Od içində", "Şirvan gözəli" kimi dram əsərləri respublika

və ölkə teatrlarında tamaşaya qoyularaq böyük uğurlar qazanmış, dramaturq kimi müəllifinə geniş şöhrət gətirmişdi. Onun ssenariləri əsasında çəkilmiş "Fətəli xan", "Leyli və Məcnun", "Bəxtiyar" kino-novellası, xüsusən iki seriyalı "Babək" bədii filmi respublikamızın mədəni həyatında əhəmiyyətli hadisə kimi qiymətləndirilmişdir. Oxucular Ənvər müəllimi gözəl tərcüməçi kimi tanıyır və sevirlər. A.Puşkin, L.Tolstoy, M.Qorki, Q.Flober, T.Drayzerin, dünya və rus ədəbiyyatının başqa klassiklərinin əsərləri məhz Ənvər Məmmədxanlının əsl sənətkar tərcüməsində Azərbaycan oxucusunun rəğbətini qazanmışdı. O, hələ gənc ikən müxtəlif mətbuat orqanlarında işləmiş, Böyük Vətən müharibəsi illərində Cənub-Qərb cəbhəsində xüsusi müxbir – yazıçı kimi iştirak etmişdir. Ənvər Məmmədxanlının döyüş və yaradıcılıq xidmətləri yüksək qiymətləndirilmişdir. İki dəfə "Şərəf nişanı", "Qırmızı Əmək Bayrağı" və "İkinci dünya müharibəsi" ordenləri, döyüş medalları ilə təltif olunmuşdur. O, "Azərbaycanın xalq yazıçısı", "Respublikanın əməkdar incəsənət xadimi" kimi fəxri adlara layiq görülmüşdür.

Ənvər Məmmədxanlı sözü ilə əməli arasında vəhdət olan sənətkardır. Onun bütün həyatı boyu vətən üçün hər cür fədakarlığa hazır olduğunu əməli və işi sübut etmişdir. 1941-ci il iyun ayında alman faşizminin quldur dəstələri vətənimizə xaincəsinə basqın edəndə Ənvər Məmmədxanlı könüllü olaraq ordu sıralarına daxil olub Cənub-Qərb cəbhəsi komandanlığının orqanı "Qızıl Ordu" qəzetində xidmətə başladı və beləliklə ağır müharibə illərində vətən qarşısındakı borcunu şərəflə yerinə yetirdi.

Yaxşı yazmaq Ənvər müəllimin yazıçı amalı, yazıçı vicdanı idi. Ona görə də onun əsərlərini oxuyanda ondan ayrılmaq olmur. Onun "Karvan dayandı", "Bakı gecələri", "Buz heykəl" əsərlərini Azərbaycan nəsrinin inciləri adlandırmaq olar. Ənvər Məmmədxanlı özünün, sözünün, şəxsiyyətinin ucalığında dayanan bir şəxsiyyətdir. O, nə yazdısa yaxşı yazdı, vicdanla yazdı. Ənvər Məmmədxanlı həm sənətkar, həm də şəxsiyyət kimi nadir, təkrarsız və müqayisə olunmaz idi. Oxucular Ənvər Məmmədxanlının sözünün sehrində, pərvazında idi. Onun əsərlərindəki romantika, dil, poetik ruh oxucusunu valeh edirdi. 1975-ci ildə bitirdiyi "Xürrəmilərin ağ şahini" adlı 3 hissəli tarixi dramı da xalq qəhrəmanı Babəkə və onun başçılıq etdiyi hərəkata həsr edilib. Ənvər Məmmədxanlının uzun illər üzərində işlədiyi "Babək" romanı Azərbaycan xalq qəhrəmanı Babək haqqında yazılmış bədii əsərlər içərisində öz orijinallığı və tarixi həqiqətlərə yaxınlığı ilə seçilir. Xalq qəhrəmanı Babək Ənvər Məmmədxanlını ilk öncə dünyaya sığmayan bir adam kimi, məhdud ehkamlarla barışmayan bir şəxsiyyət kimi, sərgərdanlıq ruhuyla yaşayan, azadlıq odunda yanıb qovrulan bir səməndər quşu kimi cəlb edirdi. Yazıçı əsərlərində yüksək sənətkarlığı, zərif şeriyyəti, füsunkar diliylə oxucusunu cəlb edirdi. "Babək" romanı ilə Ənvər Məmmədxanlının yeni ömrü başladı. Yazıçının qəfil ölümü yaradıcılıq irsi

haqqında bir vəsiyyət edə bilməməsi romanın taleyini də məchul, müəmmalı bir problemə çevirdi. Xalq yazıçısı Anara minnətdarıq ki, Ənvər Məmmədxanlının ömür abidəsini, ədəbiyyatımızın şah əsərlərindən biri olan "Babək" romanını özünəməxsus bir həssaslıqla, ustadı Ənvər Məmmədxanlıya məhəbbətlə oxuculara təqdim etdi.

Ənvər Məmmədxanlının yazıçı istedadı və mədəniyyəti dilə münasibətdən başlayır. Onun dili ifadəlidir, canlıdır, şirindir. Eyni zamanda əqli-estetik nəzarət altındadır, hətta belə demək mümkünsə, pedoqoji təmkinə malikdir. Onun təqdimində ana dili olduğu gücdə görünür. Yazıçı sözdən səxavətlə istifadə edir, lakin elə edir ki, bu, israfçılığa çevrilmir. Ənvər Məmmədxanlı nümunəvi olduğu qədər də perspektivli dil təqdim edir.

Ənvər Məmmədxanlı həm sənətkar, həm də şəxsiyyət kimi nadir, təkrarsız və müqayisəolunmaz idi. Onun övladı əsərləri idi. Ənvər Məmmədxanlı nəcabətli, nikbin, vüqarlı, təmkinli insan idi. O, ədəbiyyatımıza lirik hekayə janrını gətirdi. Onun "Buz heykəl" hekayəsi sözdən düzəldilmiş canlı bir abidədir. Uzun illər bu hekayə bizim dərsliklərdə çap olundu və uşaqlar tərəfindən sevildi.

Ənvər Məmmədxanlının söz dünyası sirli-sehrli, çoxlarına əlçatmaz görünən cazibəli, füsunkar bir aləm idi. O, zərgər kimi sözün üstündə işləyirdi. Sözə naxış vururdu, məna verirdi. Onun qələmindən çıxan söz də ürək kimi çırpınırdı, gülürdü, sevinirdi, oxuyurdu. Onun "Şərqin səhəri" əsəri əsasında yaranan tamaşa Azərbaycan dramaturgiyasının incisi sayılır. Ənvər Məmmədxanlı nasirlərimiz, dramaturqlarımız içərisində yeganə şair idi.

Xalq yazıçısı Anar yazır:

"Ənvər Məmmədxanlıda müdriklik, nuranilik, əqidəsinə sadiq qalmaq kimi müsbət xüsusiyyətlər mövcub idi. Ənvər Məmmədxanlının qəribə, unikal yaddaşı vardı. Haçan nə kitab oxumuşdusa, nə məlumat almışdısa hamısı yadında olardı. Azərbaycan və dünya tarixinə, ədəbiyyatına, fəlsəfəsinə, müasir siyasətə aid ensiklopedik biliklərə malik idi və onunla söhbət etmək bir universitet qurtarmaq qədər zənginləşdirirdi, savadlandırırdı adamı. O, islam tarixini Azərbaycanda ən dərindən bilən adamlardan idi. Onun yüksək zövqü, intelekti ,mədəniyyəti imkan verirdi ki, o, ədəbi orqanlardan, nəşriatlardan birinin başında dursun. Lakin o, bunlardan qaçırdı."

Ənvər Məmmədxanlı deyirdi: "Allah mənə az çox istedad veribsə niyə mən onun qədrini bilməməliyəm? Mənim həyatım da, xoşbəxtliliyim də yazı stolumun arxasındadır. Yazanda yazıram, yazmayanda da başlayıram tərcüməyə. Yazmaq sağ qolumdursa, tərcümə sol qolumdur. İkisidə ayrılmazdır bir-birindən. Ömrü boyu qara çörəyim tərcümədən çıxıb.O, istedadından, bacarığından qətiyyən şöhrət tapması üçün istifadə etmirdi. Çətin dolanırdı. Dərdini qəlbində bükülü gəzdirir,

onu heç kimə hətta ən yaxın adamlarına belə açmırdı. Onun həmdəmi yalnız qələm və ağ kağızlar idi."

Ənvər Məmmədxanlı o qədər gözəl, o qədər zərif, o qədər təravətli, o qədər yeni ruhlu hekayələr yazırdı ki, onları oxumaqla doymaq olmur. Görkəmli ədibimiz Ənvər Məmmədxanlı o istedadlar nəslinə mənsubdur ki, elə ilk əsərlərində öz mövzuları, öz üslubu ilə ədəbi ictimayyətin xüsusi marağına səbəb olaraq özünəməxsus yaradıcılıq yolu keçib.

Hələ ilk povesti olan "Bakı gecələri" Ənvər Məmmədxanlıdan artıq yaradıcılıq yönümü müəyyənləşən bir yazıçı kimi danışmağa imkan verir. Cavan yazıçı Bakının yalnız qəhramanların fəaliyyət meydanı, hadisələrin baş verdiyi sadəcə bir fon kimi yox, qədim mədəniyyəti, nadir təbiyyəti, özünəməxsus kəskin ziddiyyətləri olan, sürətlə dəyişib təkmilləşən, inkişaf edib irəliləyən, yeni üfüqlər fəth edən ictimai münasibətlər şəhəri kimi təqdim edirdi.

Ənvər Məmmədxanlı müxtəlif janrlarda yazırdı. Lakin janr müxtəlifliyi onun ifadə tərzinin eyni keyfiyyətdə qalmasına mane olmurdu. Onun nəsrində də, dramaturgiyasında da psixologizm aparıcı qüvvədir.

Ənvər Məmmədxanlı kino sənətində istedadlı ssenarist kimi tanınır. Onun yazdığı "Fətəli xan", "Leyli və Məcnun", "Babək" kimi ssenariləri əsasında çəkilmiş filmlər bu gün öz tarixi baxımından aktuallığı ilə seçilir. Kino-novellalarında yazıçı mahiyyətlə hadisənin optimal əlaqəsini müəyyənləşdirməyə çalışırdı. "Leyli və Məcnun" kino-dastanında isə Ənvər Məmmədxanlı qeyri-adi klassik həqiqətin birbaşa şərhçisidir; bu halda da müəllifin diqqət mərkəzində zamanın mənəvi-əxlaqi xarakterindən daha irəli insanın xarakteri dayanır. Ənvər Məmmədxanlının Məcnunu Füzulinin Məcnunundan fərqlənir; o mənada ki, XX əsrin yazıçısı XVI əsrin kontekstini daha real-həyati məzmunda dərk edir, Məcnun ideal axtarışlarında kifayət qədər konkret maneələrlə qarşılaşır, XVI əsrin deyil, XX əsrin problemlərini həll etmək üçün baş sındırır, bu günün filosofu kimi çıxış edir.

Ənvər Məmmədxanlı həyatsevər insan idi; gəncliyində dünyanın ləzzətlərindən zövq almağı bacaran adam kimi yaşlı çağında da şövqündən, yaşamaq, düşünmək, mübahisə etmək həvəsindən qalmamışdı. Amma bu nikbin təbiətli bir insanın ömrü boyu "həyatı ağrımışdı". O, lirik-romantik bir yazıçı idi. Həm də Ənvər Məmmədxanlı 30-80-ci illəri əhatə edən yaradıcılığında lirik nəsrin bir ustadı kimi də fəaliyyət göstərmişdi.

Oxucu Ənvər Məmmədxanlının əsərlərini oxuduqa onun qələminin qüdrətinə, şeriyyətinə vurulduqca vurulur, onun insanlığının, şəxsiyyətinin, vüqarının vurğunu olur. Onun "And" hekayəsində "sən hər fəsildə gözəliydin, Azərbaycan" sözləri mənə elə gəlir ki, hər bir Azərbaycan vətəndaşını təsirləndirir.

Oxucu Ənvər Məmmədxanlının əsərlərini oxuyanda belə sözlərin sehrinə düşür. Onun əsərlərindəki romantika, dil, poetik ruh oxucunu zövqünü oxşayır.

Ənvər Məmmədxanlı 1990-cı il dekabrın 19-da Bakıda vəfat etmişdir. O, Fəxri xiyabanda dəfn olunmuşdur. Onun yaratdığı əsərlər onun nəslidir. Ənvər Məmmədxanlı öləndən sonra ölməyən sənət adamlarındandır. Ənvər Məmmədxanlının istedadı bu gün də ədəbiyyatın xidmətindədir. Onun qələmindən çıxan lirik, psixoloji-fəlsəfi hekayələr Azərbaycan ədəbiyyatının qızıl fonduna daxil olmuşdur. Bu hekayələr dünən, bu gün yaşadığı kimi, gələcəkdə də yaşayacaqdır. Görkəmli sənətkar qüdrətli qələm ustası, həssas insan Ənvər Məmmədxanlının işıqlı xatirəsi həmişə qəlbimizdə yaşayacaqdır.

Gələnlə gəlmək olmur.
Qalanla qalmaq olmur.
Nə çox gülməli şeylər
Gülənlə gülmək olmur.
Həyatın hər üzünü,
Söhbətini, sözünü,
Əyrisini, düzünü,
Bilənlə bilmək olmur.
Gözüm yaşı durulub,
Gözüm yaşdan yorulub,
Dünya belə qurulub;
Ölənlə ölmək olmur.

## II. Yubiley tədbirlərinin keçirilməsi

Hər insan sirli-sehrli bir aləm, yazılmamış bir kitabdır. Yaradıcı insanın könül dünyası daha cazibədardır, təlatümlü, coşqun, üfüqləri isə daha geniş, zəngin və əlçatmaz olur. Ənvər Məmmədxanlı da həmin yaradıcı insanlardandır.

Bu il nasir, kinodramaturq, tərcüməçi, Yazıçılar Birliyinin üzvü, Əməkdar incəsənət xadimi, Azərbaycan xalq yazıçısı, qüdrətli ədəbiyyatşünas Ənvər Məmmədxanlının 100 yaşı tamam olur. Bu münasibətlə respublikanın bütün mədəniyyət müəssisələrində, eyni zamanda kitabxanalarda yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Kitabxanalarda bununla əlaqədar maraqlı tədbirlər keçirmək olar. Tədbiri keçirmək üçün kitabxana məktəblərlə, ali təhsil ocaqları ilə əməkdaşlıq etməlidir. Bu tədbirlər arasında sərgilər mühüm yer tutur. Sərgidə yazıçının kitabları, müxtəlif mətbuat səhifələrində onun haqqında nəşr olunmuş məqalələr, onun fotoları nümayiş olunur. Sərgiyə kitablarla yanaşı yazıçı haqqında dövri mətbuatda çap olunan məqalələrin kartotekasını, yazıçının dram əsərlərinin, pyeslərinin video-yazılarını, kaset və disklərini də əlavə etmək olar. Təşkil edilmiş yubiley sərgisinin qarşısında silsilə tədbirlər – söhbətlər, biblioqrafik icmallar keçirmək planlaşdırılmalıdır. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: “Ənvər Məmmədxanlı - 100”, “Ədəbiyyatımızda yaşayan həyat”, “Qüdrətli ədəbiyyatşünas Ənvər Məmmədxanlı”, “Dayanmaz karvanın sənin”, “Nəsrin şairi”, “Şair təbiətli yazıçı”, “Nəsrimizin xan çinarı”, “Şəxsiyyətinin ucalığında dayanan sənətkar”, “Lirik hekayə janrının banisi” və s.

İndi isə sərginin nümunəsini veririk.

1. Başlıq: Nəsrin şairi.
2. Ənvər Məmmədxanlının portreti.
3. Görkəmli insanların Ənvər Məmmədxanlı haqqında söylədikləri sitatlar.
4. Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası.
5. Kitablarının nümayişi.
6. Şeir parçası.

Sərgi təşkili zamanı aşağıdakı sitatlardan istifadə etmək olar.

1. Ənvər Məmmədxanlının yaradıcılığı ana dilimizə həssas yazıçı yanaşmasının parlaq nümunəsidir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

2. Ənvər Məmmədxanlı başqalarının bütöv bir povestdə və ya romanda verə bilmədiyi əsrarəngiz əhvalatı bir hekayəyə sığışdıra bilən sənətkardır. O,

şair təbiətli yazıçıdır. Onun əsərləri ümumxalq etirafı qazanmışdır.

Xalq yazıçısı M. S. Ordubadi

3. Ənvər Məmmədxanlının bir yazıçı kimi, bir şəxsiyyət kimi özündən sonrakı ədəbi nəsillərə təsiri danılmazdır. Yazıçı əsərlərində yüksək sənətkarlığı, zərif şeriyyəti, füsunkar diliylə oxucusunu cəlb edirdi.

Xalq yazıçısı Anar

4. Ənvər Məmmədxanlı bizim ədəbiyyata lirik hekayə janrını gətirdi. Onun "Buz heykəl" əsəri sözdən düzəlmiş canlı abidədir.Onun övladı əsərləridir. Ənvər Məmmədxanlının hekayələri sapa düzülmüş inci dənələridir.

Xalq yazıçısı Qılman İlkin

5. Ənvər Məmmədxanlı sözü ilə əməli arasında vəhdət olan sənətkarlrdandır. O, bütün həyatı boyu vətən üçün hər cür fədakarlığa hazır olduğunu əməli və işi ilə sübut etmişdir.

Ədəbiyyatşunas Abbas Zamanov

6. Ənvər Məmmədxanlı nasirlərimiz, dramaturqlarımız içərisində yeganə şair idi. Tariximizi gözəl bilməsi onun vətənpərvərliyindən xəbər verirdi.

Yazıçı, dramaturq Əli Səmədli

7. Ənvər Məmmədxanlı yüksək mədəniyyətli, dərin erudisiyalı bir insan idi. Ənvər Məmmədxanlının təmənnası ancaq ədəbiyyat idi.

Yazıçı Hüseyn Abbaszadə

8. Ənvər Məmmədxanlı özünün, sözünün, şəxsiyyətinin ucalığında dayanan sənətkardır. O, həm sənətkar, həm də şəxsiyyət kimi nadir, təkrarsız və müqayisəolunmaz idi. Ə.Məmmədxanlı elə bil nağıllar aləmindən gəlmişdi bu dünyaya.. Onun söz dünyası sirli-sehrli, çoxlarına əlçatmaz görünən cazibəli, füsunkar bir aləm idi.

Yazıçı, dramaturq Nahid Hacızadə

9. Ənvər Məmmədxanlı Azərbaycan nəsrində lirik – psixoloji, emosional üslubun banilərindəndir.

Yazıçı Mikayıl Rzaquluzadə

10. Ənvər Məmmədxanlı ədəbiyyatımızın tarixinə unudulmaz nasir, dramaturq, klassik hekayə ustadı, uzunömürlü kino – ssenarilər müəllifi, orijinal tərcüməçi kimi daxil olmuşdur. Ənvər Məmmədxanlı Azərbaycan ədəbiyyatının zadəganı idi.

Ədəbiyyatşünas Kamal Abdullayev

Orta yaş qrup oxucular arasında Ənvər Məmmədxanlının yubileyi münasibətilə sual-cavab gecələri, testlər və ya ədəbi viktorinalar təşkil oluna bilər. Sual-cavab gecəsi kitabxanaçı tərəfindən təşkil olunur və oxuculara suallar təqdim olunur.

Suallar:

1. Ənvər Məmmədxanlı kimdir?

Ənvər Məmmədxanlı yazıçı, dramaturq, ədəbiyyatşünas, tərcüməçi və publisistdir.

2.Ənvər Məmədxanlı neçənci ildə, harada anadan olmuşdur?

Ənvər Məmmədxanlı 1913-cü il fevralın 29-da Azərbaycanın Göyçay şəhərində doğulmuşdur.

3. Ənvər Məmmədxanlının ilk yazdığı povest hansıdır?

İlk yazdığı povest "Bakı gecələri" dir.(1935)

4. Azərbaycan kinomatoqrafiyasının inkişafında Ənvər Məmmədxanlının nə kimi xidmətləri var?

Ənvər Məmmədxanlının ssenarisi əsasında hazırlanmış "Bəxtiyar" kinonovellası, "Babək", "Fətəli xan" bədii filmləri bu xidmətlərin nəticəsidir.

5. Ənvər Məmmədxanlı yaradıcılığa hansı janrla başlayıb?

Ənvər Məmmədxanlı yaradıcılığa lirik hekayə janrı ilə başlayıb.

6. Ənvər Məmmədxanlının hansı əsərləri ilə tanışsınız?

"Buz heykəl", "Ayrıldılar", "Ananın ölümü", "Ay işığında", "Karvan dayandı", "Qızıl qönçələr", "Baş xiyabanda", "Sevinc", "Bəxtiyar", "Ananın çırağı", "Leyli və Məcnun" və s.

7. Ənvər Məmmədxanlının hansı romanına film çəkilib?

"Bəxtiyar", "Babək", "Fətəli xan", "Leyli və Məcnun".

8. Uşaqlar üçün yazdığı hansı əsərləri oxumusunuz?

"Buz heykəl", "Ananın ölümü", "Sevinc", "Balaca Nərgizin bir may sərgüzəşti"

9. Ədəbi yaradıcılığa neçənci ildə başlayıb?

1935-cu ildə.

10. "Cənub hekayələri" silsiləsinə yazıçının hansı hekayələri daxildir?

"Karvan dayandı", "Qızıl qönçələr", "Baş xiyabanda", "Od içində".

11. Ənvər Məmmədxanlı nə vaxt vəfat edib?

1990-cı il 19 dekabrda Bakıda vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur.

12.Yazıçı hansı fəxri adlara layiq görülmüşdür?

Yazıçı "Qırmızı Əmək Bayrağı", iki dəfə "Şərəf nişanı", II dərəcəli Böyük Vətən müharibəsi ordenləri, bir çox medallarla təltif edilmiş, "Azərbaycan xalq yazıçısı", "Respublikanın əməkdar incəsənət xadimi" kimi fəxri adlara layiq görülmüşdür.

Sual-cavab gecəsinin sonunda kitabxanaçı uşaqlara diqqətli olmalarına görə öz təşəkkürünü bildirir, sualları düzgün cavablandıran oxucunu mükafatlandırır və Ənvər Məmmədxanlının həyat və yaradıcılığı haqqında daha dərindən maraqlanmalarını tövsiyə edir.

Maraqlı roman və hekayə ustası kimi tanınan Ənvər Məmmədxanlının kitabxanada bir neçə kitabının icmalını keçirmək, onun yaradıcılığından bəhs edən diskusiyalar da təşkil etmək olar. Diskusiyalar keçirilərkən yazıçının hekayələrindən, romanlarından, dramlarından söhbət açılır və bu haqda oxucuların fikirləri öyrənilir. Məsələn, hələ ilk povesti olan "Bakı gecələri" Ənvər Məmmədxanlıdan artıq yaradıcılıq yönü müəyyənləşmiş bir yazıçı kimi danışmağa imkan verir. "Bakı gecələri" povesti ətrafında diskusiya aparаrkən oxucu yazıçının Bakını ancaq qəhrəmanların fəaliyyət meydanı, hadisələrin baş verdiyi sadəcə bir fon kimi yox, qədim mədəniyyəti, nadir təbiəti, özünəməxsus kəskin ziddiyyətləri olan, sürətlə dəyişib təkmilləşən, inkişaf edib irəliləyən, yeni üfüqlər fəth edən ictimai münasibətlər şəhəri kimi təqdim etdiyini anlayır. Povestdə Bakının özü də, gecəsi də, gündüzü də gözəldir, əzizdir, doğmadır. Bu doğmalıq, bu sahilsiz sevgi təsirli sirayətedicidir. Bakıda yaşamayan, ömründə bircə dəfə onu görməyən həssas oxucu "Bakı gecələri" əsəri ilə ünsiyyətdə olub, bu şəhərə laqeyid qalmır. Realist təhlükə ilə romantik təsvirin müvəffəqiyyətlə qovuşduğu povest ictimai həyatın tamamilə yeni bir mərhələyə qədəm qoyduğu çox mürəkkəb bir zamanda bəzən kifayət qədər baş çıxarmadıqları hadisələrin burulğanında çırpınan, zümrüd quşu kimi odlara yanan, lakin təzədən canlanan, əvvəlkindən də qüvvətli qanadlar kəsb edərək inkişafın yeni ənginliklərinə qoşan gəncliyin intibahını özünəməxsus bir tərzdə əks etdirir.

Müəllifin "Buz heykəl" hekayəsinin diskusiyası zamanı isə ana oxucunun gözündə şaxtalı gecədə, çölün düzündə, körpəsi donmasın deyə, bütün olan-olmazını öz əynindən çıxarıb tifili bürüyən, daha heç şeyə gümanı gəlməyəndə isə büzüşüb bükülərək bədəninin son hərarəti, qəlbinin axırıncı döyüntüləri ilə körpəsini məhv olmağa qoymayan bir bədii obraz kimi canlanır və onun nəzərində müəzzəm heykəl kimi ucalır. Hekayənin adında qış soyuqluğu hiss olunsa da, yazıçı əsərdə bütün varlığı ilə körpəsinə bağlı olan ananın qəlbinin hərarətini ustalıqla təsvir etmişdir. Oxucu anlayır ki, ananın övladına məhəbbəti bəşəri və əbədi duyğudur. Dünyaya övlad gətirən ana onu qayğısız böyütmək üçün hər cür çətinliyə dözməyə, məhrumiyyətlərə qatlaşmağa, hətta canından belə keçməyə hazırdır. "Buz heykəl" əsərində də belə böyük, sərhədsiz ana məhəbbətinin şahidi oluruq. Əsərdə yazıçı 1941-1945-ci illər müharibəsinin ilk ilində cəbhə xəttinə

yaxın yerdə baş verən bir hadisəni qələmə almışdır. Əsər oxucuya ülvi hissilər aşılayır, onun gözündə ananı müqəddəsləşdirir.

Ənvər Məmmədxanlı Vətənə məhəbbət, zülmə haqsızlığa nifrət ruhunda qələmə alınmış çoxlu əsərlərin müəllifidir. Ədibin sevilə -sevilə mütaliə edilən və böyük təsir gücünə malik belə əsərlərindən biri də “Qızıl qönçələr” hekayəsidir. Yazıçının “Qızıl qönçələr” əsəri üzərində diskusiya apararakən oxucu anlayır ki, müəllif hekayədə dərin ümumiləşdirmə apararaq Firuz babanın və onun nəvəsi Surəyyanın timsalında cəmiyyətdəki qeyri-bərabərliyin, haqsızlığın insanların həyatına gətirdiyi çətinlikləri yığcam bədii lövhələrlə açıb göstərmişdir. “Qızıl qönçələr” əsəri ədibin sevilə-sevilə mütaliə edilən və böyük təsir gücünə malik olan əsərlərindəndir. “Qızıl qönçələr” əsəri Cənubi Azərbaycanda, bütünlüklə İranda xalqın zəhmətkeş təbəqəsinin ağır vəziyyətindən bəhs edir. Gözəl, qeyrətli, pak və mehriban qızın rütubətli zirzəmidə qızıl əllərilə sahibkar xalçasına əbədiyyət naxışları vuran yetim Surəyyanın gözümüz önündə şam kimi əriyib puç olan ömrünə dərin təəsüf və pərişanlıq duyğuları bu gün də bizi tərk etməmişdir. Diskusiyada iştirak edən oxucular hekayənin sujet xəttinin dramatik tərzdə olduğunu bildirib, suallar əsasında söhbət aparırlar. Nə idi Firuz kişinin günahı? Nə üçün balaca Sürəyyanın həyatı o hələ qönçə ikən soldu? İnsanların belə ağır həyatı nə vaxtadək davam edəcəkdir?

Ənvər Məmmədxanlının “Karvan dayandı” əsəri üzərində diskusiya apararakən tədbir iştirakçıları burada baş qəhrəman Odunçu oğlunun dönməzliyini, möhkəmliyini, sarsılmazlığını anlayırlar. Odunçu oğlu heç bir vara, dövlətə baş əymir, mənlik və qürurunu sonadək qoruyub saxlayır, sevgisini itirsə də, bunun əvəzində bütöv bir xalqın məhəbbətini, sevgisini qazanır. Diskusiya zamanı tədbir iştirakçıları yazıçının yaradıcılığı ilə yaxından tanış olub, bu əsərlərin dəyərini anlayırlar.

Kitabxanalarda oxucular tərəfindən sevilən tədbirlərdən biri də müsabiqələrdir. Bildiyimiz kimi Ənvər Məmmədxanlı bir-birindən maraqlı hekayələrin müəllifidir. Müsabiqə zamanı həmin hekayələrə uşaqlar tərəfindən illüstrasiyalar çəkilməsi tapşırılır. Şəkilərin hazırlanması üçün uşaqlara iki həftə vaxt verilir. Bu vaxt ərzində oxucular həm Ənvər Məmmədxanlının əsərlərini oxuyur, həm də oxuduqları və ən çox bəyəndikləri hekayəyə illüstrasiyalar çəkirlər. Ən gözəl məna kəsb edən rəsm işləri mükafatlandırılır. Həmçinin rəsm müsabiqələri üçün məktəblərarası yarışmalar da təşkil etmək olar.

Rəsm müsabiqələri ilə yanaşı başqa müsabiqələrin də təşkili mümkündür. Məsələn, uşaqların ifasında Ənvər Məmmədxanlının hekayələri səhnələşdirilərək münsiflərə təqdim olunur. Münsiflər heyəti kitabxana müdirindən, teatrımızın görkəmli nümayəndələrindən təşkil edilir. Əsəri ən gözəl səhnələşdirən uşaqlardan ibarət komanda mükafatlandırılır.

Kitabxanalarda yuxarı sinif şagirdlərinin iştirakı ilə “Ənvər Məmmədxanlı yaradıcılığı müasir gəncliyin gözü ilə” konfrans da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı Ə.Məmmədxanlının yaradıcılığına yaxından bələd olan jurnalist, yazıçı və şairlərin çıxışları dinlənilir. Yaxşı olar ki, konfransa Ənvər Məmmədxanlının yaradıcılığı ilə yaxından tanış olan yazıçı və ədəbiyyatşünaslar dəvət olunsun. Oxucu konfransının planını sizə təqdim edirik:

**1.** Giriş hissə (Ənvər Məmmədxanlının həyat və yaradıcılığı haqqında məruzə)

**2.** Ənvər Məmmədxanlının yaradıcılığı haqqında kitabxana rəhbərliyinin, jurnalist, yazıçı və şairlərin çıxışları.

**3.**Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların Ənvər Məmmədxanlının müxtəlif əsərləri ətrafında müzakirələri.

**4.** Yazıçının əsərlərindən bir neçə parçanın səhnələşdirilməsi.

**5.** Konfransın yekunu.

Ənvər Məmmədxanlı irsinin təbliği üçün ədəbi-bədii gecələrin keçirilməsi zəruridir. Gecəni “Şair təbiətli yazıçı” başlığı ilə adlandırmaq olar. Tədbirin ssenarisini sizə təqdim edirik.

*Səhnə dramaturqun portreti, əsərlərini əks etdirən şəkillər və dramlarının adları ilə bəzədilir. Səhnənin bir tərəfində Ənvər Məmmədxanlının əsərlərindən ibarət sərgi təşkil olunur. Sərgi yazıçı haqqında yazılmış sitatlarla bəzədilir. Tədbir kitabxana rəhbərliyi tərəfindən açıq elan olunur. Gecəyə Ənvər Məmmədxanlı yaradıcılığına yaxından bələd olan tanınmış yazıçılar, tənqidçilər, jurnalistlər dəvət olunur.*

**I aparıcı:** Salam hörmətli qonaqlar, əziz dostlar.

**II aparıcı:** Bildiyimiz kimi bu il sənət və ədəbiyyat aləmində tarixi romanlar müəllifi kimi tanınan Ənvər Məmmədxanlının 100 illik yubileyi qeyd olunur. Bu münasibətlə kitabxanamızda təşkil olunmuş xatirə gecəsində hamınızı xoş gördük.

**I aparıcı:** Ənvər Məmmədxanlı nasir, kinodramaturq, tərcüməçi, Yazıçılar Birliyinin üzvü, Azərbaycan Əməkdar incəsənət xadimi, Azərbaycan xalq yazıçısıdır. Görkəmli ədibimiz o istedadlar nəslinə mənsubdur ki, elə ilk əsərlərindən etibarən öz mövzuları, öz üslubu ilə ədəbi ictimaiyyətin xüsusi marağına səbəb olmuş, özünəməxsus yaradıcılıq yolu keçmişlər. Ənvər Məmmədxanlı Vətənə məhəbbət, zülmə, haqsızlığa nifrət

ruhunda qələmə alınmış çoxlu əsərlərin müəllifidir. Ənvər Məmmədxanlı həm sənətkar, həm də şəxsiyyət kimi nadir, təkrarsız və müqayisəolunmaz idi. Onun övladı əsərləri idi.

Ənvər Məmmədxanlı nəcabətli, nikbin,vüqarlı, təmkinli insan idi. O, ədəbiyyatımıza lirik hekayə janrını gətirdi. Onun “Buz heykəl” hekayəsi sözdən düzəldilmiş canlı bir abidədir. Uzun illər bu hekayə bizim dərsliklərdə çap olundu və uşaqlar tərəfindən sevildi.

**II Aparıcı:** Hələ ilk povesti olan “Bakı gecələri” Ənvər Məmmədxanlıdan artıq yaradıcılıq yönü müəyyənləşmiş bir yazıçı kimi danışmağa imkan verir. Ənvər Məmmədxanlı Azərbaycan nəsrində lirikanın görkəmli nümunələrini yaratmışdır. Bu xüsusiyyəti onun əsərlərindən bəhs edən sənətkarların bir çoxu etiraf etmişdir. Mikayıl Rzaquluzadə yazıçını lirik-psixoloji, emosional nəsrin banisi, professor Abbas Zamanov isə “Nəsrin şairi” adlandırmışdır. Ənvər Məmmədxanlının əsərləri ilk baxışda sadə görünən, lakin çoxcəhətli həyat lövhələrini, mürəkkəb insan talelərini əhatə edən kompozisiya qurmağın, ardıcıl bədii təhlükənin, ümumi qayəyə uğurla xidmət edən təfərrüatları seçib mənalandırmağın, bütün bunları lirik-psixoloji təsvirin məcrasına düzgün yönəlməyin mükəmməl nümunələri ilə zəngindir. Ənvər Məmmədxanlının yazıçı istedadı və mədəniyyəti dilə münasibətdən başlayır. Onun dili ifadəlidir, canlıdır, şirindir. Eyni zamanda əqli-estetik nəzarət altındadır, hətta belə demək mümkünsə, pedoqoji təmkinə malikdir. Onun təqdimində ana dili olduğu gücdə görünür. Yazıçı sözdən səxavətlə istifadə edir, lakin elə edir ki, bu, israfçılığa çevrilmir. Ənvər Məmmədxanlı nümunəvi olduğu qədər də perspektivli dil təqdim edir. Ədəbiyyatımızın tarixi roman janrının ən qüdrətli yaradıcılarından biri, hekayə ustası, dramaturq, publisist, maraqlı xatirələr müəllifi və yüksək ziyalı anlayışını ömrü boyu şərəflə daşıyan Ənvər Məmmədxanlı zəngin və mürəkkəb bir həyat yolu keçmiş, gördüklərini, yaşadıqlarını, düşündüklərini parlaq bədii boyalarla əks etdirmiş və mədəniyyətimiz tarixində qiymətli bir irs qoyub getmişdir.

**I Aparıcı:** Müasir intellektə, incə, həssas qəlbə, cəmiyyət və insanlar qarşısında vəzifə borcu və məsuliyyət duyğusuna malik olan bütöv səciyyəli qəhrəmanları Ənvər Məmmədxanlı əsərlərində sevə-sevə təsvir etmiş və onların vasitəsilə öz oxucusunu

haqqın, ədalətin, təravətli yaradıcı fikrin, incə duyğuların, yüksək bəşəri ideaların təntənəsi uğrunda çarpışmağa, ətalətə, bədxahlığa qarşı mübarizəyə sövq etmişdir. Görkəmli ədibimiz hekayələrdə fərqli insan talelərini və hadisələri lirik, yığcam, eyni zamanda sadə bir dillə oxucusuna təqdim edir. Yazıçı yüksək mədəniyyətli, dərin erudisiyalı bir insan idi. Ənvər Məmmədxanlı sözü ilə əməli arasında vəhdət olan sənətkardır. Onun bütün həyatı boyu vətən üçün hər cür fədakarlığa hazır olduğunu əməli və işi sübut etmişdir. Yaxşı yazmaq Ənvər müəllimin yazıçı amalı, yazıçı vicdanı idi. Ona görə də onun əsərlərini oxuyanda ondan ayrılmaq olmur. Onun "Karvan dayandı", "Bakı gecələri", "Buz heykəl" əsərlərini Azərbaycan nəsrinin inciləri adlandırmaq olar. Ənvər Məmmədxanlı özünün, sözünün, şəxsiyyətinin ucalığında dayanan bir şəxsiyyətdir. O, nə yazdısa yaxşı yazdı, vicdanla yazdı. Ənvər Məmmədxanlı həm sənətkar, həm də şəxsiyyət kimi nadir, təkrarsız və müqayisə olunmaz idi. Oxucular Ənvər Məmmədxanlının sözünün sehrində, pərvazında idi. Onun əsərlərindəki romantika, dil, poetik ruh oxucusunu valeh edirdi.

**II Aparıcı:** Ənvər Məmmədxanlının komik vəziyyətlər yaratmaq, komik konfliktin açılmasında lirik çalara ölçü duyğusu ilə yer vermək, idealın bərqərar olması üçün gülüşdən incə bədii vasitə kimi faydalanmaq bacarığı oxucusunu bu əsərlərə məftun edir. Ənvər Məmmədxanlının səhnə əsərləri Milli dramaturgiyamızın realist ənənələrini yaşadan, müasir həyatın, sənətin mühüm, mürəkkəb problemləri ilə səsləşən sanballı dramlar, böyük çərçivəli dramatik tablolardır. Ənvər Məmmədxanlının əsərlərində surətlərin "pisi" də, "yaxşısı" da, tərəddüd edəni də, hadisələr labirintində özünü itirənidə, bir qayda olaraq öz işi, əməli, adamlara münasibəti, duyğu və düşüncələri, öz daxili aləmi ilə məhz canlı, həyati, bədii obraz kimi açılıb göstərilir.

**I Aparıcı:** "Bakı gecələri" ndə Yaqut, "Ayrıldılar"da İlyas, "Karvan dayandı" da Odunçu oğlu, "Qızıl qönçələr"də Surəyya bizim yaddaşımızda məhz bu vasitə ilə həkk olunur. Bəli ədəbiyyat obrazlı sənətdir, lakin obrazlı yazmaq sahəsində yazıçı səriştəsinin dərəcəsi müxtəlif olur. Ənvər Məmmədxanlı həmişə obrazlı təfəkkürü, onun yazıda ifadəsi olan obrazlı təhkiyəsilə seçilmişdir. Ənvər Məmmədxanlı təbiət mənzərələri təsvirinin görkəmli ustalarından biridir. Meşə, çay, dəniz, dağlar, dərələr,

səma, yağış, qar, külək, qasırğa onun təsvirlərində təravətli biçimlərdə açılır, başlıcası isə qəhrəmanlarının daxili aləmi ilə bu və ya digər dərəcədə səsləşmədə, ayrı-ayrı hallarda isə kəskin kontrast vəziyyətində təqdim olunur.

Səməd Vurğunun şeir dilində gördüyü işi Ənvər Məmmədxanlı nəsr dilində görmüşdür. Ənvər Məmmdxanlı ona görə özündən sonra gələnlərə təsir edə bildi ki, özündən əvvəlkilərin C.Cabbarlının, C.Məmmədquluzadənin, Ə.Haqverdiyevin təfəkkür–ifadə mədəniyyətini sintezləşdirə bildi, istedadını nəsrin hərəkət məntiqinə alışdırdı. “Ayrıldılar”, “Buz heykəl”, “Ananın ölümü” bu əsasda yarandı. Cənub hekayələri “Karvan dayandı”, “Qızıl qönçələr”, “Baş xiyabanda” yazıçının insan taleyi üzərində daha təkidlə düşünmək imkanını göstərdi. Ənvər Məmmədxanlının müxtəlif illərdə yazdığı kino-novellaları “Yeddinci yol”, “Bəxtiyar”, “Ananın çırağı” yazıçının ictimai varlığın psixoloji məzmununu aşkarlamaq sahəsindəki işinin davamı kimi maraqlıdır;

**II Aparıcı:** Bəzən Ənvər Məmmədxanlının öz təsvir obyektinə böyük, qlobal baxışına heyran qalmamaq olmur. Bütün varlıq, həyat, zaman və bütün nəhayətsiz kainat sanki yenidən yaranır, yenidən səslənir, yeni, füsunkar bir cilvədə onun gözlərində işıqlanır. Kino sənətinin imkanlarını və incəliklərini yaxşı bilən Ənvər Məmmədxanlı kino-povest, kino-roman və senarilərinin birinci növbədə əsl həyati konflikdən mayalanan dramaturji əsasını təmin edirdi. O, həm sənətkar, həm də şəxsiyyət kimi nadir, təkrarsız və müqayisəolunmazdır.

Oxucu Ənvər Məmmədxanlının əsərlərini oxuduqca, onun qələminin qüdrətinə, şeiriyyətinə vurulur,onun şəxsiyyətinin, vüqarının, insanlığının vurğunu olur. Bəli, Ənvər Məmmədxanlının söz dünyası sirli-sehrli, çoxlarına əlçatmaz görünən cazibəli, füsunkar bir aləmdir. Onun “Şərqin səhəri” əsəri Azərbaycan dramaturgiyasının incilərindən sayılır.

**I Aparıcı:** Ənvər Məmmədxanlı nasirlərimiz, dramaturqlarımız içərisində yeganə şair idi. Tariximizi gözəl bilməsi onun vətənpərvərliyindən xəbər verirdi. “Leyli və Məcnun”, “Xürrəmilərin ağ şahini” Ənvər Məmmədxanlının bu janrda yazılmış əsərlərinin ən yaxşılarıdır desək, yanılmarıq.

Onun əsərlərini birər-birər oxuduqca qələminin qüdrətinə, şeiriyyətinə vurulursan. Sonra insanlığının, şəxsiyyətinin,

vüqarının vurğunu olursan. Ənvər Məmmədxanlının əsərlərindəki romantika, dil, poetik ruh oxucunu heyran edir. Ənvər Məmmədxanlının “Leyli və Məcnun” kino-dastanı çox naxışlı, sıx ilməli Şərq xalısını xatırladır. Oxucu bu əsərlə tanış olduqca mətnin hüsnünü, gözəlliyini anlayır.

*Söhbət “Leyli və Məcnun”dan düşmüşkən gəlin Ənvər Məmmədxanlının “Leyli və Məcnun”kino–dastanından bir parçaya kitabxanamızın oxucularının ifasında tamaşa edək. Tamaşada səslənən qəzəllər M.Füzulinin”Leyli və Məcnun”əsərindəndir.*

*İştirakçılar əsərə uyğun paltarlarda səhnəyə daxil olurlar.*

*Səhnəyə Leyli ilə Zeynəb Məcnun haqqında söhbət edərək daxil olurlar.*

**I oxucu (Leyli) ağlayır :** Zeynəb, de Məcnunu hara aparırlar? Nə üçün sinəmdən ürəyimi qopartdılar? O karvan geri qayıdacaqmı? O batan günəş bir də doğacaqmı?

**II oxucu (Zeynəb):** Ağlama, Leylim, müqəddəs Kəbəyə aparırlar bədbəxt Məcnunu, dua elə tez şəfa tapsın, dua elə tez geri qayıtsın!

**I oxucu (Leyli):** Axı Kəbə ona nə edəcək? Məgər o Kəbədə eşqin unudub tövbə edəcək? Həcər daşın öpüb məndən üz çevirəcək? O deyirdi ki, müqəddəs Kəbəsi mənəm, mənim də müqəddəs Kəbəm o idi, Zeynəb!

**II oxucu (Zeynəb):** Aman allah, sən nə danışırsan? Günaha batırsan Leylim, belə danışma! İnşaallah Məcnun da Kəbədən ağıllı qayıdar.

**I oxucu (Leyli):** Ağıllı? Deməli o da başqaları kimi olmalıdır? Yalan və riya içində boğulmalıdır? Kor olub haqqı görməməlidir? Hüsn – eşqə səcdə etməməlidir? Sönük bir varlıq olub yerdə sürünməlidir? Düşünən beynini tox qarınla əvəz etməlidir? Budur onların gözündə ağıllı olmaq!

Və pak bir eşqin zirvəsində Qeys onlara Məcnun göründü.

*Məcnunun səsi eşidildi*:

Eşq dərdi, ey müalic, qabili – dərman deyil!
Cövhərindən eyləmək cismi cüda asan deyil!
Dövr – cövründən şikayət edənə aşiq demən
Eşq məsti vaqifi – keyfiyyəti – dövran deyil!
Şəhrdən səhraya bir fərq olduğun hər kim bilir
Bilmiş ol kim, eşq səhrasında sərkərdan deyil,
Canı canan ittihadı fariq eylər cismdən
Cismdən agah olan can, vasili – canan deyil.

*Leyli ilə rəfiqəsi Zeynəb səhnədən ayrılırlar. Səhnə əsərə uyğun dekorasiyalarla bəzədilir. Əsərə uyğun geyimlərdə, Məcnunun atası Şeyx Amiri, Məcnun daxil olurlar.*

**I oxucu (Şeyx Amiri)**: Mübarək Həcəri öpüb sən də dua elə! De ey böyük tanrı, mənə rəhm elə! De ki dərgahına üz tutmuşam, pənahım sənsən! De ki, xəstəyəm, Məcnunam, ağlıma nur saç, de ki, şikəstəm, yıxılmışam, qolumdan yapış, de ki, bu amansız dərdi canımdan iraq elə, məni Leyli eşqinin bəlasından azad elə!...

Məcnun əllərini göyə qaldırıb, deyir:

**II oxucu (Məcnun)**: Yarəb, bəlayi – eşq ilə qıl aşina məni!
Bir dəm, bəlayi – eşqdən etmə, cüda məni!
Az eyləmə inayətini əhli – dərdidən
Yəni ki, çox bəlalərə qıl mübtəla məni.
Olduqca mən götürmə bəladan iradətim
Mən istərəm bəlani çün istər bəla məni.
Təmkinimi bəlayi – məhəbbətdə qılma süst
Ta düst tən edib, deməyə bivəfa məni.
Getdikcə hüsnün eylə ziyadə nigarımın
Gəldikcə dərdinə betər et, mübtəla məni!
Öylə zəif qıl tənimi firqətindən kim
Vəslinə mümkün ola yetirmək, səba məni!

**I oxucu (Şeyx Amiri)**: Amandır, dayan oğlum, yetər! Yetər bu asilik, yetər bu sərməstlik! Yetər bu çılğın ehtiras. Yetər bu bütpərəstlik! Tez ol dua elə, şəfa istə. De ki, yarəb bir afəti sevib dəli olmuşam, de ki, Məcnun olmuşam!

**II oxucu (Məcnun)**: Yarəb, pak olan varlığı sevib damğalanmışam və boynumda qəm zənciri hüzuruna gəlmişəm! Amma demirəm məni bu zəncirdən xilas eylə. Demirəm ruhumu söndür, məni zəmanəyə ram eylə! Demirəm zəliləm, mənə səadət ver, demirəm bədbəxtəm mənə nicat ver! Yox-yox, istədiyim səndən başqa şeydir. Çəkdiyim kifayət deyilsə, min bir əzab ver! Bu da kifayət deyilsə, cəhənnəmə at, qoy dönüm küfr odunda yanan məşələ! Yox əgər o dünyada behiştsə yerim, istəmirəm o behişti, mənə Leylimi ver! Budur səndən itədiyim, yarəb və mən ölərsəm, eşqimi əbədi yaşat!

*İştirakçılar baş əyib səhnədən alqış sədaları altında ayrılırlar.*

**I Aparıcı:** Ənvər Məmmədxanlının "Babək" romanı Azərbaycan xalq qəhrəmanı Babək haqında yazılmış bədii əsərlər içərisində öz orijinallığı və tarixi həqiqətlərə yaxınlığı ilə seçilir. Yazıçı ömrünün son iyirmi ilini Babək mövzusu üzərində işləmişdir.

**II Aparıcı:** Seçdiyi mövzulara həmişə son dərəcə ciddi və tələbkar yanaşan yazıçı tarixi hadisələri, Babəkin şəxsiyyətini, dövrün siyasi, fəlsəfi, dini cərəyanlarını dərindən öyrənmiş, Azərbaycan, türk, rus dillərində tədqiqatlarla, ərəb, fars və yunan qaynaqlarından tərcümələrlə yaxından tanış olmuşdur. Ənvər Məmmədxanlı bu əsəri azadlıq eşqilə yaratmışdır. Əsər Babəkə həsr olunmuş bir nəsr əsəri səpkisində yazılmışdır. Əsərdə Babək haqsızlığa, ədalətsizliyə, zülmə qarşı barışmaz, çılğın, möhtəşəm qoşun sərvəri olub, azadlıq yanğısıyla yanıb kül olur. Dəhşətli edamından qabaq Babək xəlifə Mötəsimə meydan oxuyur:

"Ey kor yapalaq, bütün müstəbidlər kimi sən də səhv edirsən, çünki mənim dastanım elə bir dastandır ki, nə Babəklə başlanmışdır, nə də Babəklə qurtaracaq."

Əziz qonaqlar, indi isə gəlin Azadlıq dastanımız olan "Babək" romanından bir parçaya tamaşa edək.

*Kitabxananın fəal oxucuları Ənvər Məmmədxanlının "Babək" romanının II hissəsindən bir parçanı səhnələşdirirlər.*

*Afşin diqqətlə Babəkin üzünə baxdı, sonra əlini atıb qoynundan qızıl möhürlü bir məktub çıxartdı və dərhal məktubu öpüb gözləri üstünə qoydu, sonra məktubu Babəkə uzadaraq dedi:*

**I oxucu (Afşin):** Al sən də öp gözlərin üstə qoy və sonra qəbul et nicatını!

**II oxucu (Babək)**: Nədir ki, bu?

**I oxucu (Afşin):** Aç oxu! Əmirəlmöminin sənə göndərdiyi aman kağızıdır.Və doğrusu, mən əmirəlmömindən bunu gözləmirdim ki, o səni əfv eləsin!

**II oxucu (Babək)**: Ey Afşin, elə şeylər bəlkə bir gün sənə lazım oldu. Babək isə xəlifələr amanına möhtac deyil.

**I oxucu (Afşin):** Ey Allahın bəlası, indi ki, öz nicatını özün rədd etdin, yürü son mənzilinə ölümünə doğru! Amma bir daha dinlə məni, Babək xürrəmi, yaxud Babək şad ürəkli. O dəhşət ki, səni gözləyir, qırılacaq iradən, sarsılacaq şir ürəyin! Və tamam! Vidalaş bir nəfərlə! Sonra arxamca at çapacaqsan gecə - gündüz, ta xəlifənin hüzuruna qədər...

*Afşin dönüb getdi, Buğday səhnədə göründü.*

**II oxucu (Babək)**: Mən Afşinə demişdim ki, Bəzz qalasının xarabasını mənə

göstərsin, son dəfə vidalaşmaq üçün... Nə üçün o səni, miskin bir varlığı mənə göstərir? Yaxud sən özün o hadisədən sonra bayrağına, əqidənə, döyüş yoldaşlarına xəyanətdən sonra, nə üzlə özünü mənə göstərirsən.

**III oxucu (Buğday)**:Ata, sən həmişə mənə qarşı zalım olmusan.

**II oxucu (Babək)**: Mənə daha artıq irad tutmaq olardı. Çünki mən tuluqda zeytun yağı satan bir kişinin oğlu idim. Amma sənin atan Babək Xürrəmdin idi dünənə qədər. İndi yox.Çünki mən daha sənin atan deyiləm, mənim oğlum yoxdur.Bu da yolun sonu! Daha nə qaldı mənim üçün? Ölüm! Bu dünyaya mərd gəlib mərd gedənlərin son silahı. Niyə dayanmısan burda. Yox ol ki, gözüm səni görməsin.

**III oxucu (Buğday)**:Üzüm qaradır ata, öldür məni!

**II oxucu (Babək)**: Gecdir.

**III oxucu (Buğday)**: İndi ki, ölümə də layiq görmədin məni əlvida, ata.

*Buğday çıxır, Afşin içəri girir.*

**I oxucu (Afşin)**: İndi oğlunla həmişəlik vidalaşa bilərsən. Mühafizə nəfərinin kəmərindən xəncəri qapıb öz həyatına qəsd elədi.

*Yaralanmış Buğday səhnəyə daxil olur.*

**III oxucu (Buğday)**: Alın yazım belə imiş ata, keç günahımdan, bağışla məni.

*Babək dizi üstə yerə yıxılır, Buğdayın başını qaldırıb dizləri üstə alır...*

**I Aparıcı:** Bəli, Babəklə başlanmayıb Babəklə qurtarmayacaq əbədi Azadlıq dastanının bir səhifəsini də Ənvər Məmmədxanlı qələmə aldı. İstər “Leyli və Məcnun”, istərsə də “Xürrəmilərin ağ şahini” hər şeydən əvvəl Azərbaycan tarixinin və xalq poetik yaradıcılığının qaynaqları əsasında yaradılmış bitkin bədii əsərlərdir. Ənvər Məmmədxanlının əsərlərində romantika, dil, poetik ruh oxucuda belə bir təsəvvür yaradır:

Onun əsərlərini birər-birər oxuduqca qələminin qüdrətinə, şeiriyyətinə vurulursan. Sonra İnsanlığının, Şəxsiyyətinin, Vüqarının vurğunu olursan. Ənvər Məmmədxanlının əsərlərindəki romantika, dil, poetik ruh oxucunu heyran edir.

**II Aparıcı:** Onun əsərlərində işlətdiyi qiymətli sözlər dillərdə gəzir, ürəklərin başında yuva qurur. Onun söz dünyası sirli-sehrli, çoxlarına əlçatmaz görünən cazibəli, füsunkar bir aləm idi. Həqiqətən Ənvər Məmmədxanlı nəsrimizin xan çinarıdır. Bəli Ənvər Məmmədxanlı yüksək intellekti, zövqü, mədəniyyəti ilə gəncliyimizin idealı idi. Ənvər Məmmədxanlı nə yazdısa yaxşı

yazdı, vicdanla yazdı. O, həm sənətkar, həm şəxsiyyət kimi nadir, təkrarsız və müqayisəolunmaz idi.

**I Aparıcı:** Ənvər Məmmədxanlı ədəbiyyatımızın tarixinə unudulmaz nasir, dramaturq, klassik hekayə ustadı, uzunömürlü kino-ssenarilər müəllifi, orijinal tərcüməçi kimi daxil olmuşdur. Ənvər Məmmədxanlı elə bil nağıllar aləmindən gəlmişdi bu dünyaya. Azərbaycan ədəbiyyatının böyük dəryasında Ənvər Məmmədxanlının öz adası var. Bu möcüzələr adası ilə görüşmək, orada dalğaların özünəməxsus şırıltısı, quşların özünəməxsus nəğmələri, çiçəklərin özünəməxsus rəngi və rayihəsi ilə tanış olmaq istəyən gərəkdir ki, ədibin əsərlərini oxusun. Ənvər Məmmədxanlı Azərbaycan ədəbiyyatının yeni fikir və söz zadəganı idi. Yazıçının söz dünyası sirri-sehirli, cazibəli və çoxlarına əlçatmaz görünürdü. Bu elə bir sirr idi ki, o ölümündən sonra da xatırlanır, yada düşür, Ənvər Məmmədxanlının adı gələndə gözlər yaşarır. Görkəmli sənətkar qüdrətli qələm ustası, həssas insan Ənvər Məmmədxanlının işıqlı xatirəsi həmişə qəlbimizdə yaşayacaqdır.

Sözümü yazıçı, dramaturq Nahid Hacızadənin sözləri ilə bitirmək istəyirəm:

Ey böyük şəxsiyyət əsərlərin yaşadıqca
Dayanmaz, dayanmaz karvanın sənin!...

**S O N**

**İstifadə olunan ədəbiyyat siyahısı:**


1. Məmmədxanlı Ənvər. Seçilmiş əsərləri. B.: Avrasiya Perss, 2005.- 416s.
2. Məmmədxanlı Ənvər. Seçilmiş əsərləri. İki cilddə. I cild.- B.: Yazıçı,1985.- 292s.
3. Anar. Həyatım ağrıyır // Anar. Şəhidlər dağı.- B.: Gənclik,1995.- Səh.245-299.
4. Nahid Hacızadə. Dayanmaz karvanın sənin // B.: Araz nəşriyyatı, 2008.- Səh. 241-252.